# 8. DEMOKRATİK CƏMİYYƏT

**Demokrat müəyyən qayda ilə davranmalıdır.**

Özüidarəolunan cəmiyyətdə qərarlar necə qəbul olunur, maraqlar necə razılaşdırılır, münaqişələr necə həll edilir? Əmr verən mərkəz yoxdursa, cəmiyyət necə idarə olunur? Vinsent Ostromun yazdığına görə, ("Smısl amerikanskoqo federalizma", Moskva, 1993) demokratik cəmiyyətin ayrılmaz xüsusiyyəti ondan ibarətdir ki, adamlar yaşayarkən və məqsədlərini həyata keçirərkən müəyyən tərzdə davranmalıdır. Bəs "müəyyən tərzdə davranma" nə deməkdir?

... Demokratiya və özüidarəolunan cəmiyyətin əsaslandığı başlıca əxlaqi qayda hamıya hələ çox qədimlərdən məlumdur. Bu qayda insanlar arasında bərabərliyin tələblərinə əsaslanıb. Bu qaydanı Məhəmməd peyğəmbər də qəbul etmişdi. Qayda belədir: "Özünə rəva görmədiyini başqasına da etmə".

Demokratiya klassiki Tomas Hobbs (1588-1679) özünün tərtiblədiyi Sülh Qaydaları içində bunu "Qızıl qanun" adlandırmışdı.

Lakin Sülh Qaydaları özlüyündə özünüidarənin bərqərar olması üçün kifayət deyil. Axı onların necə həyata keçirilməsi, maraqların konkret necə razılaşdırılması, münaqişələrin həll edilməsi, sizin hüquq və azadlıqları pozan cinayətkarlarla və məmurlarla mübarizənin aparılması yolları naməlumdur. Bu barədə aşağıda söhbət edəcəyik...

**Hobbsun "SÜLH QAYDALARI"**

1. Sülhü axtarmaq və ona riayət etmək gərəkdir. Amma özünü də bütün mümkün vasitələrlə müdafiə etməyə hazır olmalısan.

2. Başqa adamların razılığı olarsa, sülh və özünümüdafiənin maraqları üçün zəruri ölçüdə bütün şeylərə olan hüquqdan imtina etmək, başqa adamlara münasibətdə adamların özünə qarşı münasibətdə yol verdiyi qədər azadlığın dərəcəsi ilə qənaətlənmək lazımdır.

3. Adamlar bağladıqları müqavilələri yerinə yetirməlidirlər.

5. Hər bir adam başqalarına uyğunlaşmağı bacarmalıdır.

6. Gələcəyə münasibətdə təminatın mövcudluğu zamanı adam peşmanlıq hissi keçirən və barışmağı arzulayan şəxslərə keçmiş incikliklərini bağışlamalıdır.

7. Qisas alarkən (yəni pisliyə pisliklə cavab verərkən) törədilmiş pisliyin ölçüsü yox, qisasdan sonra yaranacaq xeyrin ölçüsü nəzərə alınmalıdır.

8. Heç bir adam başqasına ədavət və nifrətini iş, söz, mimika və ya jest ilə bildirməməlidir.

9. Hər bir adam başqalarını özünə əzəldən bərabər hesab etməlidir.

10. Sülh müqaviləsinə girən adam başqasına verilməsinə razı olmadığı hüquqların ona verilməsini tələb etməməlidir...

12. Bölünməz əşyalardan, mümkünsə, birgə istifadə olunmalıdır. Həm də nəzərə alınmalıdır ki, əşyaların sayı buna imkan verirsə birgə istifadə məhdudiyyətsiz, əks halda isə, buna hüququ olanların sayına proporsional surətdə olmalıdır.

13. Əşyaları bölmək, yaxud onlardan birgə istifadə etmək mümkün deyilsə, onlardan növbəli istifadə etmək və ya yiyələnmək hüququ püşklə müəyyənləşdirilməlidir.

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

15. Sülh məsələsində vasitəçi olan bütün adamlara toxunulmazlıq təminatı verilməlidir.

16. Mübahisə zamanı tərəflər öz hüquqlarını arbitrin qərarına tabe etməlidirlər;

17. Başqalarının maraqlarına toxunan öz şəxsi işində heç kim ədalətli arbitr ola bilməz.

18. Tərəflərdən hansı birininsə qələbəsindən açıq-aşkar böyük fayda, şərəf, məmnunluq əldə edə biləcək şəxs arbitr olmamalıdır.

19. Faktla bağlı mübahisədə hakim bir tərəfə başqasından, bir şahidə o biri şahiddən çox etibar edə bilməz və o vaxtacan yeni şahidlər dəvət etməlidir ki, onların verdiyi ifadə məsələnin həlli üçün kifayət olsun.

ÜMUMİ QAYDA: Özünə rəva görmədiyini başqasına da etmə.

**Demokrat heç də bizim fikirləşdiyimiz kimi deyil...**

* Demokratik cəmiyyətdə insanlar arasında, adi vətəndaşla prezident, hərəkatın sıravi üzvü ilə lideri arasında münasibətlər inam yox, institutlaşdırılmış inamsızlıq üzərində, yəni müqavilə hazırlamağa və imzalamağa imkan verən qaydalar və daimi qarşılıqlı nəzarət üsulları üzərində qurulur. Müasir beynəlxalq münasibətlərdə qarşılıqlı münasibətlərin məhz bu xarakteri əmələ gəlib. Kor-koranə, hədsiz etimad və müasir demokratiya uyuşmazdır. Yoxlanması mümkün olmayan şeyə inanmaq olmaz.

"İndi və burada" - *Right Here, Right Now* - Qərb adamını bizdən fərqləndirən əsas şüarlardan biri budur. "Biz işıqlı gələcəyi gözləməyə və dözməyə hazırlaşmırıq. Biz "qarşılıqlı müqavilə" üzrə haqq-hesab, bütün suallarımıza indi və burada cavab verməyi tələb edirik.

* Liberalizmin məqsədi bərabər imkanlar cəmiyyətində Tərəqqi və Uğurdur. Liberalizmin məişət əxlaqı bizimkindən əsaslı surətdə fərqlənir. 25 il əvvəl "Eskvayr" Amerika jurnalı zarafatca bugünkü liberal demokratiya dövrünün yeddi yeni bağışlanmaz günahını müəyyənləşdirib: İsmət, Kasıblıq, Şöhrətsizlik, Qocalıq, Uğursuzluq, Eybəcərlik, Daimilik!

* Bu gün biz yumşaq xasiyyətli, münaqişə axtarmayan, insanlar üzərində hakimiyyətindən istifadə etməyən insanı "demokratik adam" adlandırırıq. Lakin demokratik sivilizasiyanın nümayəndəsi ilk növbədə öz hüquqlarını nə güclüyə, nə zəifə, nə icmasına, nə də dövlətinə güzəştə getməyən adamdır. Beləsi qanunu, ya da "müqavilə"ni rəhbər tutaraq öz Haqlı maraqlarını axıracan müdafiə edəcək.

İnsanda olan belə inadkarlıq bizi qıcıqlandırır. "homo sovetikus" deyir: "Bu ki, demaqoqdur". Bizdən uzaq olan demokrat obrazını yaxşı təsəvvür etmək üçün bildiririk: bəli, demokratik Qərb adamı "demaqoq" deməkdir. Yorulmadan hüquqlarını tələb edən bu surət necə də bizə yaddır! O, bizə xoş olan harmoniyanı inkar edir, mahiyyətə çatmaq üçün hadisəni hissələrə parçalamağa çalışır. O, həm zamana, həm də avtoritetə qarşı dözümsüzdür. "İndi və burada... özü də mənə nağıl danışmayın".

Demokratiyanın nəzəriyyəsi iddia edir ki, nə demokratik qanunlar, nə hakimiyyət bölgüsü və insan haqlarına təminat verən konstitusiya, nə də ədalətli, müdrik hökmdar özlüyündə ədalət və demokratiyanı təmin edə bilməz. Gənc Konstitusiya ilə reallığın toqquşmasını müşahidə edən T.Cefferson yazırdı ki, "konstitusiya hakimlərin əlində mumdan başqa bir şey deyil". Yalnız bizim "demaqoq" adlandırdığımız adam özünün bezikdirici hər şeyi bilmək həvəsi ilə, inadkarlığı və öz marağı uğrunda mübarizəsi ilə məmuru qanuna əməl etməyə məcbur edə bilər. "İnsanlar ... müəyyən qaydada hərəkət etməlidirlər" yazan Vinsent Ostrom (yuxarı bax) demokratiyanın qurulması üçün çox zəruri olan məhz bu keyfiyyəti nəzərdə tuturdu.

Demokratiyanın qurulması üçün zəruri əsas insani keyfiyyətlər əxlaq ("Qızıl qanun"dan irəli gələn) və insanın özünü idarə etmək bacarığıdır.

* "Qoy Roma məhv olsun, təkcə qanun zəfər çalsın". Qədim Romadan bizə çatan bu əxlaq qaydaları qərb demokratında Qanunun Aliliyinə sədaqət formalaşdırıb.

* Nonkonformizm (konformizmin - öz fikrini həmişə çoxluğun fikri ilə razılaşdırmağın əksi) plüralist demokratiyanın əsasıdır.

* Uyğun olaraq humanist adam heç də hər şeyi bağışlayan adam demək deyil. O, "insan bütün şeylərin ölçüsüdür" həqiqətini qəbul edərək, insanın xeyirxah təbiətinə inanan, onun azadlıq və xoşbəxtliyə can atmaq hüquqlarını həm ehkamçılıq, həm də özbaşınalıqdan törəyən zorakılıqdan qoruyan; avtoritarizmi və

Hikmət Hacızadənin Arxiv 2025 Kitabxanasından

fövqəltəbiiliyi rədd edən; “insanın özündən başqa onun taleyinə heç kəs hökmranlıq edə bilməz” fikrini təsdiqləyəndir.

Böyük humanistlər çox vaxt təkbaşına zərərçəkəni müdafiə etmək üçün çoxluğun rəyinə və dövlətin qərarlarına qarşı çıxıblar. Onlar həmişə özlərinin bir hissəciyini insanlara verib, konkret adama qarşı törənmiş zorakılığı şəxsi faciələri kimi qəbul edərək konkret adamın ləyaqətini və mülkiyyətini müdafiə etmək üçün öz sakitliyi və firavanlıqlarından keçənlərdir.

* İnsana, bir qrup adama kömək etmək sahəsində də demokrat kəskin, amma səmərəli qaydalar yaradıb. “Siz aclara biz balıq verməyəcəyik ... Amma sizə tilov verib həmin balığı tutmağı öyrədəcəyik. Və köməyimizi nəzarətdə saxlayacağıq ki, onun hədər getməsinin qarşısını ala bilək”. İlk dəfə belə yanaşma İkinci Dünya müharibəsindən sonra dağılmış Qərbi Avropa üçün ABŞ-nın “C.Marşall planında” geniş tətbiq olunmuşdu.

* “Sovet adamı” (bu çoxluğa bu gün biz də daxilik) hətta özünün yaratdığı qanunu pozmaqdan ləzzət alırsa, demokrat qanunun tələblərini və üsullarını yerinə yetirməkdən məmnun olur. Çünki axı o, qanun-ları başqa adamlarla qarşılıqlı əlaqədə olmaq üçün norma kimi müəyyənləşdirib və onları qarşılıqlı razılıq əsasında dəyişdirə bilər...

**Privacy - bizə bəlli olmayan ənənə**

Müasir Qərb adamının həyatının əsaslandığı başlıca prinsiplərdən biri Prayvesi (Privacy – ing.) (ayrılmış, xüsusi, şəxsi xarakter daşıyan) prinsipidir.

Privacy - şəxsi toxunulmazlıq zonasıdır, fərdin şəxsən ona məxsus olan maddi dəyərləri və informasiyanı (yazı kitabçasında şəxsi qeydlər, şəxsi məktublar kimi; onları oxumaq adamın cibinə girməyə bərabər cinayətdir) cəmiyyətin və dövlətin nəzarətindən sərbəst qorumaq haqqıdır.

Privacy anlayışı insanın heç kəsin müdaxilə etmək haqqı olmayan maddi və mənəvi həyatının kollektiv həyatdan fərqini əhatə edir. Privacy-nin maddi hissəsi mülkiyyətdir, o, toxunulmazdır və ənənəvi olaraq müqəddəs sayılır. Bu ənənə cəmiyyətimizdə sosialist inqilabı nəticəsində qırılsa da, bizdə mülkiyyətin müqəddəsliyi haqqında anlayış var. Privacy-nin mənəvi tərəfi bizə çox az tanışdır; bu, insanın mənəvi həyatına qarışmamaqdır.

Biz bəzən bizə hiddətli və ədəbsiz görünən “bu mənim şəxsi işimdir” ifadəsini eşidirik. Qərbdə isə heç kəs “Bu mənim Privacy-mdir”, cavabına təəccüblənməz. Orada “Siz Allaha inanırsınızmı?” sualına cavab vermək qəbul olunmayıb - o, Privacy-dir və bu barədə soruşmaq olmaz. Keçmiş barədə soruşulmaq da qəbul olunmayıb, çünki insanın sirr saxlamaq haqqı var. Belə ki, insanın keçmişində baş vermiş heç nə onun bugünkü hüquqlarını məhdudlaşdırmır. İngilislərin atalar sözündə deyilir: “Hər kəsin şkafında öz skeletləri var”. Əməkhaqqının böyüklüyü barədə soruşmaq da qəbul olunmayıb - bu barədə məlumatların sızması adama ziyan vura bilər. İnsanın etnik mənsubiyyəti də onun Privacy-dir; o heç yerdə qeydə alınmır, məişətdə vurğulanmır; oxucu əsasız nəticələr çıxarmasın deyə qəzetlərdə adam haqqında yazarkən onun dini, etnik və irqi mənsubiyyəti göstərilmir. İnsanın həyat tərzi, onun vicdanı (məsələn, o başqa planetdən gələnlərə inanır) da Privacy-dir və onun heç kəsə dəxli yoxdur və s.

Mənəvi Privacy uğrunda mübarizə daha çox fərdiyyətçiliyin təbliği ilə məşğul olan Amerika incəsənətinin də əsas mövzularından biridir. Müasir ədəbi əsərlərin, kinofilmlərin və estrada mahnılarının xeyli hissəsi şəxsi mənəvi azadlığa, fərdiyyətçiliyə, başqalarına bənzəməyən konkret şəxsi ləyaqət mövzusuna həsr olunub.

Amerikalılar öz Privacy-ləri, təkrarsızlıqları, mənəvi azadlıqları, sirləri ilə nə cəmiyyət, nə dost, nə də sevgilisi ilə bölüşmək və ya bunları qurban vermək fikrində deyillər. Privacy mövzusuna bu və ya başqa cür toxunan “Conversation” (Danışıq), “Seks, yalan və video”, “Birdy” (Quşcuğaz) və s. kimi bizə məlum olan Amerika filmlərini yada salmaq kifayətdir. Və yaxud məşhur estrada mahnılarından misralara nəzər yetirək: “Mən bu yolu istədiyim kimi seçdim”, “Sənin üçün bütün rənglərimi dəyişməli deyiləm”, “Bilsən, azadlığım mənim üçün nə deməkdir”. Görünür, burada heç kim sevgilisində nəqş olunmağa hazırlaşmır.

**Termodinamikanın ən çox xoşlamadığım üçüncü qanunu**

Canlı təbiətin qanunlarını cəmiyyətin inkişaf qanunları ilə müqayisə edərkən alimlər çox uzağa gedən nəticələr çıxarırlar (məsələn, sosial darvinizm və s). Belə nəticələrin ədalətliliyini araşdırmaq bizim vəzifəmizə daxil deyil. Lakin, tutaq ki, təbiətin fundamental qanunları olan fizika qanunlarının (fəlsəfədə belə fərziyyələr artıq irəli sürülüb) həyatımızla birbaşa əlaqəsi var.

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

Məsələn, bəzi fizika dərsliklərində "Termodinamikanın üçüncü qanunu" adlandırılan qanunda deyilir: əgər sistemi öz ixtiyarına qoysan, orada gedən qeyri-iradi fiziki proseslər sistemdəki xaosu -qaydasızlığı artıracaq. Və yaxud fiziklərin dili ilə desək, belə sistemdə entropiya (nizamsızlığın ölçüsü) artacaq.

Təbiət kimi belə sistemə də enerji verməsən, son nəticədə o da dağılacaq, məhv olacaq. Belə enerjini Təbiət bitkilərə işıq verən və bütün canlıların qidası olan Günəşdən alır (təəssüf ki, belə halda Günəşin entropiyası artır).

Başqa misal. Siz enerji sərf edərək bina tikmisiniz və bundan sonra binanı özbaşına buraxsanız (onun təmirinə əlavə güc sərf etməsəniz) bina yavaş-yavaş, lakin mütləq dağılacaq.

Cəmiyyətdə də belədir... Burada mənim özümə və çoxumuza təsəlli verməyən nəticəyə gəlirik: əbədi qurulmuş heç nə yoxdur.

Elə bir şey, elə bir iş, elə bir ictimai institut yoxdur ki, birdəfəlik və həmişəlik təşkil edilsin və onu başlı-başına buraxıb saysız təşkiletmə qayğılarından, nəhayət, dincəlmək mümkün olsun. Tikdiyimiz və təşkil etdiyimiz hər şey sonralar daimi nəzarət, müdaxilə, təmir, daha yaxşısı isə, modernləşmə tələb edir.

Elektrik taxaclarının öz yuvalarından çıxmaq, telefon qaytanının naməlum yerdən qırılmaq, pəncərədə olan yarıqların böyümək xüsusiyyəti var. Daha sonra: təşkilatın üzvləri daim nizamnamə və proqram-dan müxtəlif tərəflərə yayınır, tez-tez isə ümumiyyətlə fəallıqlarını itirirlər. Biz enerji sərf edib qanun qəbul edirik, amma onların yerinə yetirilməsində heç kəs maraqlı deyilsə, onların müdafiəsi üçün əlavə enerji sərf etmirlərsə, qanunlar həyata keçirilməyəcək.

Demokratiya onun müdafiəsi üçün daimi səy tələb edir. Demokratiyanı müdafiə etmək üçün cəmiyyətin bu səyləri Vətəndaş nəzarəti adlanır. Bu nəzarət vətəndaşlar və ictimai birliklər tərəfindən məmur-ların hərəkətini diqqətlə izləyən azad mətbuat, kütləvi etiraz aksiyaları, ədalətli demokratik məhkəmə (belə bir şey varsa) vasitəsilə həyata keçirilir.

"Cəmiyyətdə termodinamikanın üçüncü qanunu" bizi fəal həyat mövqeyi tutmağa, daimi narahatlığa, özümüzdə və ətrafımızda baş verən hadisələrdən məlum narazılığa vadar edir.

**Qlobal düşün, lokal hərəkət et**

Beşinci əsrdə Xoşbəxt Avqustin bu gün bizə çox vacib olan bir dua yazıb: "İlahi, məndən asılı olanı dəf etmək üçün mənə güc ver. İlahi, mənə dözüm ver ki, məndən asılı olmayana tab gətirə bilim. Və mənə İlahi, ağıl ver ki, birincini ikincidən seçə bilim".

Bu duanı ona görə misal gətirirəm ki, Azərbaycan demokratlarının fundamental səhvi bundan ibarətdir ki onlardan asılı olmayan qlobal problemlərlə mübarizə aparmaq üçün güc və həmişə mübarizənin hər hansı nəticə verə biləcəyi yerdə həmin dərəcədə dözüm tapırlar.

Demokratik hərəkatın liderləri və fəalları özlərinin bilavasitə rəhbərlərinə (məsələn, iş yerlərində təşkilatın sədrinə və təsərrüfat işləri üzrə direktor müavininə) qarşı açıq çıxış etməyə, demək olar ki, cəsarət etmir, onlarla əxlaqsız sövdələşməyə girir, eyni zamanda onların, demək olar ki, hamısı Imperiyalarla güzəştsiz mübarizəyə hazır olurlar. Axı bu, absurd və ya fırıldaqçılıqdır. Axı, İmperiya səndən statusca bir-iki pillə yuxarı (ona görə də güclü) olan adamlardan 260 min dəfə güclüdür.

Qərbin demokratik fəallarına xarakterik olan şüarlardan biri də belədir: "Qlobal düşün, lokal hərəkət et".

Göründüyü kimi, Qərbdə bizim bu tapmacanı (şöbə müdiri ilə sövdələşmək və İmperiya ilə axıracan mübarizə aparmaq) çoxdan həll ediblər.

İnformasiya demokratiyanın danışdığı dildir

**PLÜRALİZMDƏN İNFORMASİYA DOĞULUR**

Plüralist demokratiya (Prluralism - çoxvariantlılıq, müxtəliflik) ona görə səmərəlidir ki, plüralizmdən informasiya doğulur. Məhz bu qanuna görə demokratiya totalitarizmə qalib gəlir. Buradan belə nəticə çıxır ki,

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

bazar inzibatçılıqdan səmərəlidir, ölkə əhalisinin polietnik tərkibi onun milli sərvətidir, belə ki, hər bir etnik qrupun submədəniyyətində başqalarına bəlli olmayan problemi həll etmək üsulları ola bilər.

## Amerika jurnalistikasında mühakimələr deyil, araşdırmalar qiymətləndirilir

Demokratiya nəzəriyyəçiləri belə hesab edirlər ki, demokratik prosesdə uğur qazanmaq üçün vətəndaşların yığılmaq və ümumi sosial, siyasi və iqtisadi işlərini müzakirə etmək, düşünmək imkanı qazandıqları “kütləvi sahəyə” (Public sphere) - siyasi “məkana” daha çox  diqqət yetirmək lazımdır. “Kütləvi sahəni” cəmiyyətin bütün vacib məsələlərinin azad müzakirəsi və bütün baxışların irəli sürülməsi üçün lazımi şərtləri təmin edən institutların geniş spektri yaradır. Lakin təkcə institutlar kifayət deyil. İnsanlar özləri müəyyən keyfiyyətlər (məsələn, dözümlülük kimi) yetişdirməli və inkişaf etdirməli, dərrakəli diskussiyanın aparılmasını mümkün edən sosial şərait (informasiya əldə etmək kimi) yaratmalıdırlar.  Demokratiya müxtəlif rəylərin təzahürü olan diskussiya yox, ağıllı və səriştəli diskussiya tələb edir. Bunun üçün isə mətbuat adamlara ətraf mühit barədə faktlar təqdim etməlidir. Qərbdə bir çox jurnalistlərin keçmiş və indi ilə bağlı faktları araşdırmaları və son vaxtlarda “jurnalist araşdırmalarının” sayının kəskin artması demokratik nəzəriyyə baxımından ruhlandırıcı faktdır. Jurnalist araşdırması üzdə olan izah və faktların qəbulundan imtina və cəmiyyət üçün əlçatmaz olan faktların əldə edilməsi deməkdir.

Qərbin müasir detektiv filmlərinə nəzər yetirsək, görərik, bunlardan bir çoxunun qəhrəmanı hadisəni polis və şəxsi detektivlə bərabər araşdıran jurnalistdir. O, informasiyanı ictimaiyyətə çatdırmaqla cəmiyyətdə ədalətin bərqərar olmasına kömək edir. İnformasiya bütün demokratiyaların danışdığı dildir...

## Brave New world (“Şanlı yeni dünya”)
## BİZ ARTIQ ATA-BABA QAYDASI İLƏ YAŞAYA BİLMƏYƏCƏYİK

“Şanlı yeni dünya” tanınmış ingilis yazıçısı Oldos Hakslinin (1894-1963) roman antiutopiyasının adıdır (əsərin adı Şekspirin “Tufan”ından götürülüb). Hər dəfə əvvəlkindən prinsipial fərqlənən, gəlməsi uğrunda şiddətli mübarizə aparıldığı, lakin özü ilə çoxlu ziddiyyət gətirən yeni dövrü ifadə etməyə çalışanda bu əsər yada düşür...

XX əsrin sonunda dövlət və dövlətlərarası münasibətlərin yeni dövrə daxil olması barədə çox yazılıb. Müharibədə qələbəni mənasız etmiş nüvə silahının kəşfi, sərhədləri yox edən transmilli iqtisadiyyatın və heç bir ölkənin təklikdə həll edə bilmədiyi ekoloji problemlərin mövcudluğu dəfələrlə qeyd olunub.

Fəqət postindustrial dövrdə müasir cəmiyyətin, onun hər bir üzvünün şəxsi həyatında rastlaşdığı köklü dəyişikliklər barədə bizdə az yazırlar.

Məşhur Amerika futuroloqu Alvin Toffler “Gələcəkdən şokadüşmə” (Futuroshok) əsərində yazır: indiki yüzilliyin axırı üçün müxtəlif demokratik ölkələrin sakinləri əcdadlarının görmədiyi və çoxlarının onları yaşamaq iqtidarında olmayacağı dəyişikliklərlə rastlaşacaqlar.  Onlar “Şərəfli yeni dünya” ilə toqquşmaqdan şok keçirəcəklər. Çoxları üçün gələcək çox tez başlanacaq.

İndi sivilizasiya ilə baş verənləri alimlər mənasına görə yalnız “neolitdə əkinçiliyə keçid”lə müqayisə olunan “insanlıq tarixində ikinci böyük mərhələnin başlanğıcı” hesab edirlər. Toffler kitabında müasir dövrü “doğulduğum andan (XX əsrin əvvəlindən) mənim dünyaya gəldiyim vaxtacan baş verən qədər hadisə baş verib” kimi xarakterizə edən məşhur müasir mütəfəkkir Kennet Bouldinqdən sitat gətirib.

İnsanlığın 50 000 illik mövcudluğunu nəsillərin (hər birini 62 il) sayı ilə ölçmək istəsək, cəmi 800 nəsil alınar. Onlardan 650-si öz həyatını mağaralarda keçirib. Yalnız son 70-nin yazı sayəsində nəsillər arasında əlaqə yaratmaq imkanı olub. Son altı nəsil həyatı boyu çap sözü ilə tanış olub. Son dörd nəslin nümayəndələri az-çox vaxtı ölçməyə müvəffəq olublar. Yalnız son iki nəsil elektrik motorundan istifadə edib.  Gündəlik həyatımızda işlətdiyimiz maddi ehtiyatların tam əksəriyyəti sonuncu - 800-cü nəslin vaxtında yaradılıb.

Bu 800-cü nəsil keçmiş insan təcrübəsi ilə əlaqənin kəskin şəkildə qırılmasının mücəssəməsidir.

Sivilizasiyanın inkişafını izləyənlər arasında “sosial proseslər başgicəlləndirici tezliklə sürətlənir” qaidəsi möhkəmlənir.

Təxminən 10 ildən sonra şəhər sakinlərinin sayı iki dəfə artmalıdır...

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

Son 2000 il müddətində insanlığın istifadə etdiyi bütün enerjinin tən yarısı indiki yüzilliyin payına düşür...

Əsrin əvvəlindən ikinci dünya müharibəsinə kimi, məsələn, Fransada sənaye istehsalı yalnız 5% artıb. İndi bütün inkişaf etmiş ölkələrdə sənaye istehsalının illik artımı 5%-dir. Belə ölkələrdə istehsalın ümumi həcmi hər 15 ildən bir iki dəfə artır...

Bu onu göstərir ki, belə cəmiyyətdə yeniyetməni onun doğulduğu vaxtdan valideynlərindən iki dəfə çox insan tərəfindən yaradılmış istehlak şeyləri əhatə edir. Bu yeniyetmə 75 il yaşasa, onun bütün ömrü boyu istehsalın həcmi 32 dəfə artacaq. Bütün bu qeyri-adi iqtisadi faktlar texniki proses adlanan iri, səs-küylü dəyişiklik maşınından irəli gəlir...

Texnikanın inkişafı sel kimi sürətlə axır. Bu zaman sosial, fəlsəfi, hətta şəxsi problemlərin yeni həllini söyləyən prinsipcə yeni maşınlar meydana gəldi. Onlar insanın intellektual mühitini, düşüncə tərzini, dünyaya baxışını (heç olmasa, kompüteri yada salaq) da dəyişir.

Texniki tərəqqi günü-gündən daha çox informasiya istehlak edir. Elmi məqalələrin sayı 15 ildən bir iki dəfə artır, dünyada elmi-texniki ədəbiyyatın illik artımı 60 milyon səhifəyə yaxındır. Bəşəriyyət isə bir yerdə saymamaq üçün bunların hamısını mənimsəməlidir.

Dəyişikliklərin artan sürəti əhəmiyyətli və çox az öyrənilmiş sosial hadisələrdən biridir. Lakin alimlər belə bir nəticəyə gələ biliblər ki, tempin sürətlənməsi həyatı mənimsəməni dəyişdirən mənəvi tarazlığımızı pozan psixoloji faktordur.

Gələcəklə toqquşmadan yaranan şoka dözmək və ondan qaçmaq üçün insanın ata-babanınkından qat-qat çox uyğunlaşma qabiliyyəti olmalıdır. İnsanın əvvəlki din, milliyyət, icma, ailə və peşə əsasları indi dəyişikliklərin sürəti nəticəsində silkələndiyi üçün o, həyati dözümünü saxlamağın tamamilə yeni üsullarını axtarmaq zərurəti ilə qarşılaşır.

Şeylərdən istifadə müddəti azalır: belə əşyalardan olan uşaqlığın "sevimli oyuncağı" bizə yaxşı məlumdur, amma "mövsümün sevimli oyuncağı" anlayışının meydana gəldiyi uşaqlarımız isə belə əşyanın mövcudluğu ilə tanış deyillər.

Dəyişmələrin tempi sürətləndikcə davamlı iqtisadiyyatı (əsrlər üçün qurulmuş binaları, bütün ömür boyu işlənən əşyaları) "uzun ömür sürməyən iqtisadiyyat" əvəz edir. Əşyalar xarab olmaqdan daha tez mənəvi aşınmaya məruz qalır, bundan əlavə, onları əvəz etmək təmir etməkdən daha asan olur.

Biz müvəqqəti tələbatı ödəmək üçün müvəqqəti üsullarla hazırlanmış müvəqqəti əşyalar dövrünə daxil oluruq. İnsanlığın tarixi boyu heç vaxt məsafə bu qədər məna ifadə etməyib. Heç vaxt insanın yaşadığı yerə münasibəti belə davamsız və dəyişkən olmayıb. Bu gün Amerikada ildə 40 milyon adam yaşayış yerini dəyişir. Avropanı üçüncü ölkələrdən köçən mühacirlərin görünməmiş kütləvi dalğası bürüyüb.

Superindustrializmə yaxınlaşdıqca adamların bir-biri ilə münasibəti daha çox müvəqqəti, dəyişkən xarakter alır.

Əşyalar və yaşayış yerləri kimi insanlar da həyatımızdan getdikcə artan templə, yubanmadan keçirlər.

Elmi informasiyanın güclənən seli ona gətirib çıxarır ki, dünənki həqiqətlər bu gün əfsanəyə çevrilir, ən yüksək ixtisaslı mütəxəssislər öz səriştələrinə daim şübhə etməli, yenidən oxumalı olurlar.

Hətta musiqi də həyatın artan templərinin axınını hiss edir. Musiqiçilərin Motsartın, Baxın və Haydnın əsərlərini onların yarandığı dövrə nisbətən indi daha sürətli tempdə ifa etmələri barədə məlumat var...

Biz superindustrial inqilabın ən coşğun çağını yaşayırıq. İnqilab isə yenilik deməkdir. O, insanların həyatına yenilik axını kimi soxulur, tanış olmayan institutlarla və öyrəşmədiyi hallarla qarşılaşır. O, var-dövlət və uğura olan baxışlarımız da daxil olmaqla dəyərlər sistemimizi dəyişdirir, asudə vaxtımızı və təhsilimizi yenidən qurur...

Lakin hər şeyin həddi var. İnsan orqanizminin tab gətirəcəyi dəyişmələrin miqdarı da məhduddur. Hər bir oriyentasiyanın, uyğunlaşma reaksiyasının dəyişməsi fiziki və psixoloji mexanizmlərin aşınması bahasına başa gəlir. Görünür, inkişaf etmiş demokratik ölkələrdə insan uyğunlaşma həddinə yaxınlaşır.

Elə görsənə bilər ki, keçmiş sovet ölkələrində, həmçinin Azərbaycanda kütləvi futuroşok qorxusu yoxdur.

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

Lakin razılaşın ki, dəyişikliklər, yeniliklər axınından, eləcə də həyatın qeyri-müəyyənlik və səbatsızlığından irəli gələn mənəvi narahatlığın ilk təzahürlərini artıq bizdə də müşahidə etmək olar. Göründüyü kimi bu dəyişikliklər axını getdikcə güclənəcək və biz "gələcəklə toqquşmaya" hazır olmalıyıq.

Çünki dəyişikliklərdən tamamilə imtina etmək mümkün deyil. Dəyişikliklər insana hava kimi lazımdır... Tofflerin yazdığı kimi, onlar 800-cü nəslə də birinciyə olduğu qədər lazımdır...

* * *

## 9. DEMOKRATİYA VƏ RASİONALİZM

Bizim günlərdə gedən diskussiyanın ən mühüm intellektual və hətta mənəvi mahiyyəti, tanınmış liberal filosof Karl Popperin yazdığı kimi, rasionalizmlə irrasionalizm arasındakı konfliktdir. Nə qədər qəribə olsa da, rasionalizm bir metod kimi indiyə qədər irrasionalizmə qalib gələ bilmir. Həqiqətin gözünə baxmaq iqtidarında olmayan, hətta bunu etmək istəməyən adamlarla azmı rastlaşmısınız? Bəzilərinə aldadılmış halda yaşamaq asandır... Beləsinin gözlərini açsan, o, idrakı uyuyanda damın kənarı ilə gəzən oyadılmış lunatik kimi yıxılacaq. Könüllü köləlikdə yalnız rasionalizmi rədd etməklə - faktlardan imtina edib bütövlükdə rəhbərin nüfuzuna etibar etməklə qalmaq olar.

Aydındır ki, azadlıq və özünüidarə insandan tamam başqa şey - qərarların rasional metodla qəbul olunmasını tələb edir. Sivilizasiya bu metodu əldə etməklə demokratiya və özünüidarəni yüzillərlə inkişaf etdirib.

**"Qərb Qərbdir, Şərq isə Şərq və onlar bir-biri ilə uyuşmayacaq."**
**Niyə?**

*"Knowledge is Power" ("Bilik qüvvədir")*
Frensis Bekon

Son orta əsrlərdə formalaşmış və Frensis Bekonun dəqiq ifadə etdiyi idrak metodu - "induktiv metod" haqqında müddəa ilə Qərb Şərqdən fərqlənməyə başlayıb. Həmin metoda görə dünyanı izah edən fikir və ideyalar yalnız elmi eksperimentlərin gedişində toplanmış faktların diqqətlə öyrənilməsi nəticəsində qəbul oluna bilər. Şərq "idrak üsulu"nda isə (orta əsrlərdə Aristotel üsulu adlanan və başlanğıcını qədim Çindən götürən) hadisənin izahı üçün əsas hansısa avtoritetin havadan götürdüyü İdeyadır və bundan sonra bütün faktlar bu İdeyanın işığında şərh olunur.

"Otaqdan bayıra çıxmadan dünyanı dərk etmək olar" - qədim Çin fəlsəfəsi olan Daosizm hikməti Şərq tipli idrakın əsas mahiyyətini təşkil edir. "Həqiqət avtoritetin deyil, zamanın (yəni, təcrübənin - H.H.) qızıdır" aforizmi ilə Bekon əsasını qədim Çindən götürən təfəkkürə meydan oxumuşdur... (1)

**(1) Daosizm haqqında**

Lao Tszı (böyük Çin filosofu, e.ə. 640-cı il) tərəfindən əsası qoyulmuş Daosizmin başlıca prinsipi belədir - şərti olaraq heç nə etmək lazım deyil. Bu prinsip yalnız ən ali mənəviyyata nail olmuş adamlara yarayır, cəmiyyətin sadə üzvü üçün isə yerinəyetirilməzdir:

İnsan zəifliklərini ört-basdır etmək üçün cəmiyyətin yaratdığı şərtiliklərə əsaslanmaq olmaz.

Dünyanı heç kim yaratmayıb, o özü-özündən inkişaf edib.

Hadisənin məna və mahiyyəti sözlərlə ifadə oluna bilməz, çünki sözlər də şərtidir.

Buna görə də hadisəni təhlil etmək, tərkib hissələrə bölmək, onun məzmununu sözlə ifadə etmək mümkün deyil.

Nurlanıb, daonun necə axdığını və nə isə ümumi HAQQI tapmaqla həqiqəti dərhal anlamaq olar.

Nə özünə, nə başqalarına heç nəyin naminə nə söz, nə əməl, nə də zahiri görünüşlə yalan danışmağa və riyakarlıq etməyə dəyməz.

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

Təbiətdə nə uğur var, nə də uğursuzluq. Gülməlidirsə - ürəkdən gülmək, incidirsə - ağrıdan qışqırmaq gərəkdir. Dünyada müqəddəs heç nə yoxdur. Heç nədə xüsusi bir şey yoxdur. Söyüd budağında özlüyündə nə dəhşətli, nə də gözəl bir şey yoxdur.

Hər şey spontan (öz-özünə) baş verməlidir. İdrakı buraxmaq lazımdır ki, qərar özü meydana çıxsın. Ədalətdi burax ki, adamlara qarşı sevgi yaransın...

**Adi idrakın tənqidi**
**BEKONUN MƏSLƏHƏTLƏRİ BU GÜN DƏ BİZİM ÜÇÜN AKTUALDIR**

Faydalı olan həqiqidir<br>Fr.Bekon

İntellektin təmizlənməsi haqqında, insan idrakını çətinliyə salan və onu çoxsaylı səhv və ya yanlışlıqlara gətirib çıxaran anadangəlmə və qazanılmış bütlər haqqında təlim Bekonun irsində əhəmiyyətli yer tutur.

Bekon hesab edir ki, SƏHVLƏR insan zəkasının təbiətindən irəli gəlir. Çünki insan zəkası bütün şeyləri subyektiv tonlara boyayıb, beləliklə də, onların əsl təbiətini təhrif edən iradə və hisslərdən qidalanır.

YANLIŞLIQLAR isə insan zəkasına müxtəlif ara söhbətləri, ehtikari nəzəriyyələr və səhv sübutlar vasitəsilə daxil olur.

**Nəsil və qəbilə bütləri**

Sağlam düşüncə ona görə çox tez-tez<br>rədd edilir ki, bu, ümidi puça çıxarır.<br>Fr.Bekon

Bekon qeyd edir ki, insanlar üstün tutduqlarının həqiqiliyinə inanmağa vərdiş etdikləri və maraqlı olduq-ları şeyləri hər vəchlə müdafiə etməyə meyllidirlər. Çətin şeylər çox tez-tez ona görə rədd edilir ki, onları tədqiq etməyə səbr çatmır; sağlam düşüncə çox tez-tez ona görə rədd edilir ki, o, ümidi sıxıntıya salır. İnsanlar həmçinin idealizə etməyə meyllidirlər - onlar güman edirlər ki, şeylərdə həqiqətdə olduğundan daha artıq nizam-intizam var. Bekon hesab edir ki, bütün bunlar Nəsil və Qəbilə Bütlərinin təzahürləridir.

**Mağara bütləri**

Hər bir insan psixi xüsusiyyətinə, vərdişlərinə, tərbiyəsinə və digər səbəblərə görə yalnız ona məxsus olan dünyayabaxış bucağına, “təbiətin işığını sındırıb təhrif edən özünün xüsusi mağarasına” malikdir. Belə ki, bəzi zehinlər şeylərdə oxşarlığı, digərləri isə fərqləri görməyə meyllidir; bəziləri ənənələrə bağlıdır, digərləri isə yeniliyə can atırlar. Mağara Bütləri həm onları, həm də o biriləri həqiqətin dərk olunması ilə heç bir əlaqəsi olmayan ifratçılığa doğru itələyir.

Bekon hesab edir ki, bu anadangəlmə bütləri aradan qaldırmaq mümkün deyil, lakin onların insan zəkasına təsirini dərk edib, səhvlərin çoxalmasının qarşısını almaq və metodik cəhətdən idrak prosesini düzgün qurmaq olar.

**Ad və ya meydan bütləri**

Söz anlayışlarından düzgün istifadə olunmamasını Bekon insan şüurunu cəzb edən ən zərərli bütlərdən biri hesab edir. Meydan bütləri şüura insanlar arasındakı ünsiyyətdən və bu ünsiyyətdə işlənən söz ştamplarından daxil olur. Bunlara uydurulmuş mövcud olmayan şeylərin adları, “orqanizm şlaklardan təmizlənir” (halbuki orqanizmdə heç bir “şlak” yoxdur) kimi avam abstraksiyaları ifadə edən sözlər aiddir.

Təcrübə sözlərin ənənəvi məzmunundan fərqlənən yeni mənasını aşkar etdikdə həmin bütlərin təzyiqi xüsusilə hiss olunur. Bunun ən parlaq nümunəsi “liberal” sözüdür. Bu söz indiyə qədər bizdə “yumşaq, zəif xarakterli adam” kimi başa düşülür, halbuki onun mənası “azad” deməkdir.

Hikmət Hacızadənin Arxiv 2025 Kitabxanasından

**Teatr, yaxud nəzəriyyə bütləri**

Bekon ən çox öz dövrünün azad mülahizələrinə deyil, avtoritetə itaət və tabeçiliyə əsaslanan (Aristotel) hakim fəlsəfi ştampa (nəzəriyyələrə) qarşı çıxır. Bu cür bütlərə mübtəla olmuş filosoflar təbiətin müxtəlifliyini bəsit sxemlərə və mücərrəd konstruksiyalara salmağa çalışırlar və bu zaman tələb olunduğuna nisbətən daha az informasiya əsasında qərar çıxararaq nəzərə almırlar ki, abstrakt ehkamlar idrakın təbii gedişini zorlayır və təhrif edir...

Bekonun elmi idrak prosesinin inkişafına təsirini qiymətləndirməmək mümkün deyil. Bekonun irrasionalizmə qarşı başladığı mübarizə və yaratdığı idrak metodu indiyə kimi elm tarixşünaslarını onun yaradıcılığına qayıtmağa vadar edir.

Maraqlıdır ki, Bekon həmçinin "Yeni Atlantida" adlı roman-utopiyanın müəllifidir. Lakin bu roman Tomas Mor ruhunda yazılmış sosialist utopiyası deyil. Rasionalizm romanın sonunda Bekonu belə nəticəyə gətirir ki, ümumi rifaha sosialist kommunalarında deyil, xüsusi mülkiyyət və sahibkarlığı inkişaf etdirməklə çatmaq olar...

Bekon yazır: "Mən insan anlamında, hər kəsin zəkasının ona təlqin etdiyi yox, reallıqda olan dünyanın həqiqi surətini qururam. Dünyanı tərkib hissələrə ayırmadan bunu etmək olmaz... Buna görə də Həqiqət və Faydalılıq mahiyyətcə eyni şeylərdir..."

(Şərq ənənəsi isə məhz bütövün parçalanması əleyhinə, hadisənin tam şəkildə dərk olunması tərəfdarı kimi çıxış edir, çünki Şərq mütəfəkkirləri hesab edirdilər ki, parçalanma harmoniyanı pozur).

P.S. Maraqlıdır ki, ciddi səylər hesabına hakimiyyət zirvəsinə qalxmış Bekon (o, lord-kansler vəzifə-sini tuturdu) bundan "uğurla" istifadə etmişdir. Parlament komissiyası böyük filosofu rüşvətxorluqda ittiham edərək müqəssir saymışdır (sonra kral onu əfv edib).

**Fransa inqilabının məqsədləri... və bu gün biz beləyik**

"Azadlıq, Mülkiyyət, Təhlükəsizlik, Zora müqavimət göstərmək Hüququ". Fransa inqilabının bəyan etdiyi məqsədlər, eləcə də İnsan və vətəndaş hüquqları Bəyannaməsində (1789) təsbit olunmuş liberalizmin əsas dəyərləri bunlardır (bizdə Azadlıq, Bərabərlik, Qardaşlıq kimi şüarlar daha çox məlumdur).

"Müstəqillik və Demokratiya" şüarları altında Azərbaycanda gedən müasir xalq hərəkatı öz mahiyyətinə görə, hər bir insanın mənəvi və maddi Mülkiyyəti (bizim vicdan və əqidəmiz, xüsusi və ümummilli mülkiyyət buraya daxildir) uğrunda hərəkatdır.

Biz istəmirik ki, Mülkiyyətimizə nə ruslar, nə ermənilər, nə də azərbaycanlılar(!) qəsd etsin.

Azərbaycanlılar arasında bizim Mülkiyyətimizə oğrular (geniş mənada korrupsiyaya qurşanmış şəxslər) və şizofreniklər qəsd edə bilər. Oğrulara qarşı mübarizənin zəruriliyini cəmiyyət kifayət qədər dərk edirsə, bizə xeyli ziyan vuran şizofreniklər hələ ki, kölgədə qalmağa müvəffəq olurlar. Bu isə mülkiyyət uğrunda mübarizəmizi təsirsiz edir.

Burada yalnız müxtəlif psixoloji xidmətlərin geniş tətbiqini məsləhət görmək olar. Həmçinin özümüz də diqqətli olmalıyıq, çünki şizofreniki müəyyən etmək heç də çətin deyil.

Şizofreniya - sayca çatışmayan faktlar əsasında çıxarılan əqli nəticədir.

Bu tərifə əsaslanaraq hesab etmək olar ki, hər on nəfərdən səkkizi bu və ya başqa mənada həmin yüksək ada layiq görülə bilər. Belələrini "rubilnikə" yaxın buraxmaq olmaz.

Şizofreniya ilə mübarizə müstəqillik və demokratiya uğrunda mübarizənin tərkib hissəsidir.

Hərəkatın hər bir şüurlu üzvü heç olmasa bir nəfər - xüsusilə hörmətli şizofreniki öz öhdəsinə götürməlidir (belə ki, onların sayı təxminən bərabərdir)...

Heç vaxt kifayət qədər əsaslandırılmamış nəticələr çıxarmayın. Problemi tədqiq edin, faktları yoxlayın, hadisələri araşdırın. Hər bir demokrat dünyanı yaxşılaşdırmaq məqsədilə onu öyrənən tədqiqatçıdır...

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

**Şübhə rasional idrakın əsasıdır**

Rasionalizm (ağıllılıq, insanın qəbul etdiyi qərarların elmi cəhətdən əsaslandırılması) özünüidarəedən cəmiyyətin ən mühüm əsaslarındandır. Belə cəmiyyət müdrik rəhbərin göstərişlərindən imtina edir, burada hər bir insan azaddır və özü (başqalarının üzərinə atmadan) öz taleyinə görə məsuliyyət daşıyır...

Belə insan rasional təfəkkür metodlarına sahib olmalıdır. Bunlardan bəziləri aşağıdakılardır:

Heç nəyə dəlilsiz inanmaq olmaz.

Yalnız kifayət qədər yoxlanılmış faktlar əsasında qərar qəbul etmək olar.

Bütün faktlar, hadisələr və adlar tənqid edilə bilər. İstənilən "bilik mənbəyi" - ənənə, dərrakə, təsəvvür, müşahidə və s. - məqbuldur, lakin onlardan heç biri avtoritar (qaba qüvvəyə və kor-koranə tabeçiliyə əsaslanan) deyildir! Şübhə altına alınması və istehza edilməsi mümkün olmayan heç nə yoxdur.

Lao Tszı məsləhət görür ki, mülahizəni dünyaya gətirən kimi onu lağa qoy! Məsələn, "yerimək qaçmaqdan yaxşıdır; durmaq yeriməkdən yaxşıdır; oturmaq durmaqdan yaxşıdır; uzanmaq oturmaqdan yaxşıdır və ölmək yaşamaqdan yaxşıdır".

**"İstehza həqiqət üçün ən yaxşı sınaqdır" (lord Çesterfild, 1694-1773).**

Ümumiyyətlə, demokrat olmaq istəyənlərə bütün hallarda mümkün qədər çox şübhə, ironiya və yumor məsləhət görürəm. "Bəşəriyyət öz keçmişindən gülə-gülə ayrılır". Unutmayın ki, həqiqi ciddi adam heç vaxt belə təsir bağışlamır (və ümumiyyətlə həyatımızda nə vaxtsa əsl karnaval olacaqmı ki, biz orada, heç kəsin xətrinə dəyəcəyindən qorxmayıb, ürəkdən sevinək?).

İstənilən şəxsə istənilən sualı vermək olar, istənilən fikir şübhə altına alına bilər. Şübhə elmi biliyin əsasıdır. Fikir üçün heç bir sərhəd ola bilməz. İntellektual səmimilik və intellektual təmizlik! Sokratın öyrətdiyi kimi, elmin ruhu kritisizmdir.

Plüralizm demokratiyası təkcə insanın istənilən əqidəyə sahib olmaq hüququna yox, daha çox insanın (bizdə formalaşmış rəyin əksinə olaraq) öz əqidəsini dəyişməkdə azad olmasındadır.

**"Qəsdlər nəzəriyyəsi", Dünya bizə göründüyü qədər nizamlıdırmı?**

"Hadisənin əsil günahkarını tapmaq üçün, onun baş verməsində maraqlı olan şəxsi və yaxud insan qrupunu müəyyənləşdirmək kifayətdir" - məşhur ifadəsi bizlərdən kimə məlum deyil. Karl Popperin yazdığına görə, hadisələrin bu cür tədqiqat metodu görünür belə bir fərziyyədən irəli gəlir ki, istənilən ictimai hadisələrin, xüsusilə də çevriliş, üsyan, müharibə, siyasi və iqtisadi böhranların, əsasında müəyyən qüdrətli şəxs və ya qrupların məqsədyönlü fəaliyyəti durur. Geniş yayılmış bu yanlış fikri Karl Popper "qəsdlər nəzəriyyəsi" adlandırıb.

Qəsdlər nəzəriyyəsi ən qədim sosial nəzəriyyələrdən biridir. Homerin Troya müharibəsini anlatmaq üçün istifadə etdiyi "Allahların sövdələşməsini" yada salaq. Popper yazır: "Allahlar qovuldular, lakin onların şüurlardakı yerini, bizim bütün əzablarımızın səbəbkarı olan, bəlalar üçün məsuliyyət daşıyan, qüdrətli şəxsiyyətlər və şərəməlli qruplar tutdu. Belələri həm Sion müdrikləri, həm inhisarçılar, həm kapitalistlər, həm də imperialistlər ola bilər.

"Qəsdlər nəzəriyyəsi"nə əsaslanaraq, heç bir çətinlik çəkmədən inqilabdan əvvəlki Rusiya və müharibədən qabaqkı Almaniyanın üzləşdiyi fəlakətlərin günahkarlarını (bunlar - yəhudilərdi) tapıb aradan qaldırmaq, və yaxud, şiələrlə sünnilər arasındakı ədavət toxumunun 19 əsrin sonunda ingilis kəşfiyyatı tərəfindən səpildiyini iddia etmək, və ya İranda islam inqilabının, şah rejiminin güclənməsindən ehtiyatlanan, Qərb tərəfindən qəsdən törədildiyini, yaxud da SSRİ-nin dağılmasına gətirib çıxarmış milli-demokratik hərəkatların DTK tərəfindən idarə olunduğunu söyləmək olar (sonuncu fikir xüsusilə gülməlidir. Belə çıxır ki, Sovet İttifaqını SSRİ DTK-sı dağıdıb?).

Popper qeyd edir ki, qəsdlərin mövcudluğunu etiraf etmək lazımdır. Eyni zamanda, qəsdlər nəzəriyyəsini inkar edən digər mühüm faktın varlığını da qəbul etmək zəruridir: qəsdlərin çox az bir hissəsi son nəticədə uğurla qurtarır. Qəsdçilər çox nadir hallarda öz əməllərinin bəhrəsini dadırlar.

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

Niyə belə olur? Nə üçün nəticələr niyyətlərdən bu qədər kəskin surətdə fərqlənir? Sadəcə ona görə ki, qəsdin mövcud olub-olmamasından asılı olmayaraq, cəmiyyətin həyatında həmişə belə olur. Cəmiyyətin həyatı, təkcə mübarizə aparan qrupların öz güclərini sınadıqları meydan deyil, həm də... institut və ənənələr strukturu çərçivəsində fəaliyyətdir. Cəmiyyət həyatı həmçinin strukturlarda xeyli gözlənilməz reaksiyalar doğurur ki, bunlardan da bəzilərini öncədan görmək, ümumiyyətlə, mümkün deyil.

Popper iddia edir ki, həmin reaksiyaları təhlil etməyə çalışmaq, imkan daxilində onları öncədən görmək cəmiyyət haqqında elmlərin əsas vəzifəsidir. Adi iqtisadi fəaliyyət nəzərdə tutulmayan nəticələr ideyasını aydınlaşdırmaq üçün yaxşı nümunə ola bilər. Belə ki, ev almaq istəyən şəxs daşınmaz əmlakın bazar qiymətlərinin artmamasını arzulayır. Lakin onun alıcı sifətində bazarda peyda olması faktının özü bazar qiymətlərinin yüksəlməsini şərtləndirir (Karl Popper."Açıq cəmiyyət və onun düşmənləri ").

Nəticədə, hər birimizin bu və ya digər dərəcədə rəğbət bəslədiyimiz qəsdlər nəzəriyyəsinin baş sındırmaq istəməyən tərəfdarlarına Q.L.Menkenin dahiyanə kəlamını misal gətirmək istəyirəm. Bu kəlamın şərhə ehtiyacı yoxdur: "İnsanı narahat edən istənilən problemin həmişə çox asan, mümkün lakin səhv olan həllini tapmaq olar". Menkenə inanaq və Popperlə razılaşaq ki, dünya bizə göründüyü qədər də sadə və nizamlı deyil.

**Klassik liberalizmin əsasları**

Klassik liberalizmin əsasını geniş yayılmış aşağıdakı müddəalar təşkil edir:

- İnsan həyatının mütləq dəyərliliyi;

- Azadlığın insan üçün ən ali dəyər olduğunun qəbul edilməsi;

- Qanun qarşısında bütün insanların bərabərliyi;

- İnsanın şüurluluq və comərdliyi;

- İnsanın təbii alınmaz haqlarının mövcudluğu.

- Dövlətlə münasibətlərdə insan haqlarının üstünlüyü;

- Ümumi razılıq əsasında və insanın alınmaz haqlarının müdafiəsi məqsədilə dövlətin yaradılması;

- İnsan və dövlət arasındakı münasibətlərin saziş xarakteri (başqa sözlə, qarşılıqlı öhdəlik barəsində sazişə girirlər və dövlət bu sazişi pozarsa təqdirdə xalqın üsyan qaldırıb onu yıxmaq hüququ var);

- Demokratik yolla qəbul edilmiş qanunun aliliyi. "Qanunda azadlıq";

- İnsanın şəxsi həyatının toxunulmazlığı, o cümlədən dövlət tərəfindən;

- Geniş özünüidarə - cəmiyyətin idarə olunmasında dövlətin rolunun məhdudlaşdırılması.

**Klassik liberalizmin rasional doktrinası**

Demokratiyanın əsasını rasionalizm, xurafatın yoxluğu, problemə ciddi elmi yanaşma təşkil edir. Liberalizm insana iqtisadiyyat və siyasətdə ən yüksək mənfəət əldə etmək məqsədi güdən şüurlu varlıq münasibəti bəsləyir (Rasional doktrina). Yalnız bu müddəa düzgün olsa (yəni insan öz təbiətinə görə şüurludursa), Azadlığın səmərəliliyindən danışmaq olar və yalnız o zaman Azadlıq xoşbəxtliyə çatmağın zəruri şərtidir. Yalnız şüurlu varlığı azadlığa buraxmaq olar...

LAKİN: dünya və vətəndaş müharibələri, amansız inqilablar, soyqırımı və irrasionalizmin başqa təzahürləri insanın şüurluluğu barədə məyusluğa və inamsızlığa gətirib çıxarıb.

Filosof R.Kellinin yazdığı kimi: "Biz getdikcə daha çox əmin oluruq ki, hiss və ehtiraslar siyasətdə müstəqil rol oynayır, insanlar ideyalar naminə dünyanı xaosa çevirməyə hazırdır, nəsli düşmənçilik cəmiyyətdə iblisanə hakimiyyətə malik ola bilər".

Satış üçün nəzərdə tutulmayıb

“Tarixi peyğəmbərlik və irrasionalizm rəmmallarının bütün cəbhə boyu hücuma keçdikləri bir şəraitdə, sağdan və soldan sıxışdırılan rasional üsula duruş gətirmək çətindir. Buna görə də rasionalizm ilə irrasionalizm arasındakı konflikt bizim günlərdəki diskussiyanın ən mühüm intellektual, hətta, mümkün ki, mənəvi predmetinə çevrilir” (K.Popper)

“Həqiqətin universal standartının tələbi kimi rasionallıq təkcə bu tələbin asanlıqla qəbul edildiyi vaxtlarda deyil, həmçinin onun dəyərsiz insan fantaziyası təki nifrətə layiq görüldüyü və rədd edildiyi daha az uğurlu dövrlərdə də birinci dərəcəli əhəmiyyətə malikdir...” (Bertran Rassel, İngiltərə filosofu və riyaziyyatçısı, 1872-1970).

Rasionalizm və induktiv metoddan irəli gələn ən mühüm demokratik prinsiplərdən biri günahsızlıq prezumpsiyası prinsipidir.

**Konservatizm**

Avropada konservatizm Liberalizmə reaksiyadan yaranır. Bu böyük siyasi fəlsəfə coşğun tərəqqinin qarşısında bəzi məhdudiyyətlər qoymağa çalışırdı, çünki cəmiyyət onunla ayaqlaşa bilmirdi. Konservatizm təklif edir ki, insanlara onların hələlik istifadə edə bilmədikləri və ya öz ziyanlarına istifadə etdikləri azadlıqlar verilməsin. Konservatizm də Liberalizm kimi hesab edir ki, “bütün insanlar azad doğulurlar”. Lakin konservatizm belə hesab edir ki insanlar, əfsus ki, mükəmməl doğulmurlar. İnsan zəifdir və çiy süd əmib...

**Britaniyada ilk liberallar və konservatorlar. “Xalq konservatizmi”.**

*Hikmət HACIZADƏnin “Siyasətə bir himn” məqaləsindən*
*(Azadlıq 03.10.95) Andre Moruanın “Dizraelinin həyatı”*
*(Britaniyanın baş naziri, 1801-1881) romanı əsasında.*

LİBERALLAR VƏ KONSERVATORLAR

Üstəlik, siyasi mövqe seçmək lazım idi. Dizraeli müstəqil radikal kimi çıxış edərək həm konservator-ları (mühafizəkarları), həm də liberalları tənqid etmək qərarına gəldi. Üç dəfə seçkidə uduzandan sonra mühafizəkarlara qoşulmağa məcbur oldu.

İngiltərənin iki əsas siyasi qüvvəsi olan torilər (mühafizəkarlar) və viqlər (liberallar) hərəkatı öz başlanğıcını 1688-ci il inqilabı dövründən, kralı parlamentdən asılı etmiş “Hüquqlar haqqında Bill”in qəbul olunduğu vaxtdan götürür. O zaman parlamentin və protestant məzhəbinin əleyhdarları öz rəqiblərinə “viqlər” (kral əleyhinə qiyam qaldıranlar) ləqəbi vermişdilər. Monarxiya və katolisizm tərəfdarlarına isə “torilər” (quldurlar) deyirdilər. Qiyamçılar nəslindən olan bir çox ailə indi də viqlərin ənənələrini yaşatmaqdadır. Onlar həmişə müstəqil olmağa, kral hakimiyyətinə qarşı müxalifətdə durmağa, dissident kilsələrə rəğbət bəsləməyə, alovlu liberal-azadlıq prinsiplərinin tərəfdarları kimi çıxış etməyə çalışırlar Torpaqla bağlı olan mülkədarların böyük bir hissəsi isə mühafizəkarlar partiyasına, krala və hakim kilsəyə sadiq idilər. Liberallar sənaye və ticarət burjuaziyasının, mühafizəkarlar isə torpaq sahiblərinin mənafeyinə xidmət edirdilər. Bunlardan biri – “Azadlıq”, o biri isə “Qayda-qanun” partiyası idi. O vaxt-dan demokratik ölkələrin çoxunda belə partiyalar fəaliyyət göstərir.

XALQ KONSERVATİZMİ

Mühafizəkarların o vaxtkı ideoloji baqajını nəzərdən keçirən Dizraeli belə nəticəyə gəlirdi ki, ümumiyyətlə belə bir baqaj yoxdur. Liberalların yetkin siyasi (insan haqları) və iqtisadi (bazar və azad ticarət) konsepsiyaları olduğu halda, torilərin lideri ser Robert Pil yorulmadan mühafizəkarlıqdan dəm vursa da, bu mühafizəkarlığın nəyi mühafizə etməli olduğu bəlli deyildi.

30-cu illərin sonuna yaxın Dizraeli bir sıra esselərində, “Koninqsbi, yaxud Gənc nəsil” və “Sibilla, yaxud İki millət” romanlarında Mühafizəkarlar Partiyasının gələcək yüz illik simasını müəyyənləşdirən yetkin bir nəzəriyyə irəli sürür.

Öz əsərlərində Dizraeli burjua hakimiyyətinə və bazar xaosuna qarşı stabil aristokrat İngiltərəni qoyur. Elə bir İngiltərəni ki, orada kral da, onun lordları da və adi camaat da can deyib can eşidirlər. Onun şüarı üç sözdən ibarət idi: “Aristokratiya, Xalq, Kilsə”. O belə hesab edirdi ki, İngiltərənin beş əsrlik tarixi və ənənələri - baronlarla kəndlilərin dinc yanaşı yaşamaları - insan haqlarından üstündür. Xalq yalnız öz təbii, fitri

Satış üçün nəzərdə tutulmayıb

öndərlərinin rəhbərliyi ilə xoşbəxt ola bilər. Rəhbərlər isə ənənələri qoruyaraq sadə xalq qarşısında öz məsuliyyətini hiss etməli, onu sosial cəhətdən qorumalıdır. Başqa sözlə, sadə adamlar lordların əlini öpməli, bu əl isə həmin sadə adamlara çörək verməlidir. Ölkədə "iki - varlı və yoxsul" mil-lət olmamalıdır. "Bir millət", o millətin düşünən "başı", işləyən "əli və ayağı" olmalıdır.

Dizraelinin "xalq mühafizəkarlığı", "yeni feodalizm", yaxud "monarxiya sosializmi" adlanan doktrinası sovet sosializminin reallıqlarını yadımıza salır: aristokrat həyatı sürən partiya elitası "sadə xalqın qeydinə qalmalı", xalq isə öz rəhbərlərinə minnətdar olmalı idi.

Yox, Dizraeli "feodal İngiltərəsinin qızıl dövrünə" qayıtmağa çağırmırdı. Monarxiyanı və lordlar palatasını tərənnüm etməklə yanaşı, o, seçki hüquqlarını o dərəcədə genişləndirməyə səsləyirdi ki, xalq parlamentdə təmsil oluna bilsin, sadə xalqın sosial hüquqlarını qorumaq mümkün olsun. Onun doktrinası yuxarılarla aşağıların orta sinfə qarşı, torpaq sahibləri olan lordların sənayeçi lordlara qarşı ittifaqını nəzərdə tuturdu.

Dizraeli doktrinasının başqa bir önəmli hissəsi imperiya ideyasından ibarət idi. Bir çox liberallar belə hesab edirdilər ki, müstəmləkə ölkələr İngiltərəyə heç bir fayda vermir, əksinə, onlar büdcənin çiyinlə-rində ağır bir yükdür, onlardan can qurtarmaq vaxtıdır. Dizraeli isə Britaniya imperiyasını genişləndirməyin, fəal xarici siyasət yeritməyin, Britaniya millətində günəşin qürub etmədiyi imperiya üçün iftixar hissini gücləndirməyin tərəfdarı idi.

Beləliklə, Dizraeli doktrinası üç mühüm müddəadan ibarət idi:

sosial islahatlar, ənənələrin (feodal) qorunması və imperiya ideyası.

Marqaret Tetçerin "yeni konservatizmi" meydana gələnə qədər Böyük Britaniyanın Mühafizəkarlar Partiyasının simasını məhz bu doktrina (liberallardan əxz edilmiş bəzi baxışlarla birgə) müəyyən edirdi.

Dizraelinin silahdaşları "xalq mühafizəkarlığı"nı gurultulu alqışlarla qarşılamışdılar. Bu doktrina onların aristokrat iddiaları üçün ideoloji zəmin yaradırdı.

*  *  *

.

Satış üçün nəzərdə tutulmayıb